**Şadlıq evində nöqsanların aşkarlanmasına dair məlumat**

**(4 aprel 2025)**

Füzuli rayonunun Əhmədbəyli kəndində fəaliyyət göstərən, fiziki şəxs Məhərrəmov Nazim Eyvaz oğluna məxsus “Banu Palace” şadlıq evində AQTA əməkdaşları tərəfindən yoxlama keçirilib.
Baxış zamanı ictimai iaşə obyektində qida təhlükəsizliyi tələblərinə əməl edilmədiyi, həmçinin sanitar-texniki və sanitar-gigiyenik vəziyyətin normativlərə cavab vermədiyi aşkarlanıb.
Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.